## ■ Oruç Dadaşi Elman

### Gözəllik

Ulduzlara tay könlümə göydən ələnibsən
Eşqin oduna can ocağından bələnibsən

Başdan  ayağa şanlı gözəllik həvəsindən
Güldən barınan bağ kimi, yaz cilvələnibsən

Alnında günəş qoşmasına tel hörulübdür
Gözlərdə qəzəl qafiyəsin sürmələnibsən

Qaşlarda, rədif, əyri qılıncın düzülübdür
Kirpiklər oxun, məsnəvisin kölgələnibsən

Agzında şirin süzmədədir ballı pətəklər
Dildən - dodağa, qan kimi nar danələnibsən

Sağ üzdə xalın qiməti, yaqutə bərabər
Sol üzdə yanaq üstünə al lalələnibsən

Boynunda boğaz, durna adından uca durmuş
Ağlıqda buxaq, qarlı bulud silkələnibsən

Qoynunda itən cənnəti, könlüm quşu gəzmiş
Eşqin gücüdür, sən bu qədər incələnibsən

Zülfündə əsir ömrümə, səndən gileyim yox
*Elman* qocalıb, sən nə gözəl körpələnibsən